*Qarabağın görkəmli simaları*

# Səfərəli bəy Vəlibəyov (1861-1902)

Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının məzunu, görkəmli maarif xadimi, pedaqoq, publisist Səfərəli bəy Şıxhəsən bəy oğlu Vəlibəyov 1861-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Molla yanında təhsil alarkən ərəb və fars dillərinə mükəmməl yiyələnmişdir. 1875-1879-cu illərdə Şuşa şəhər rus məktəbində təhsil almışdır.

1879-cu ildə Aleksey Çernyayevski tələbə toplamaq məqsədi ilə Şuşada olarkən gənc Səfərəli bəylə söhbət aparmış, zirək və bacarıqlı olduğunu görüb onu Zaqafqaziya Müəllimlər Seminariyasının nəzdində açılmış Azərbaycan bölməsinə aparmış, onu seminariyanın 2-ci sinfinə qəbul etmişdir.

Seminariya həyatı, ordakı təlim-tərbiyə sistemi basqa seminaristlər kimi Səfərəli bəy Vəlibəyovun da mənəvi inkişafına müsbət təsirini göstərmişdir. Gələcək müəllim təhsilin ilk günlərindən başlayaraq özünü qabil və işgüzar bir gənc kimi göstərir, tədris fənlərinə dərindən yiyələnir, dünya ədəbiyyatı nümunələrini mütaliə edir, pedaqogika elmi haqqında təhsil alır.

Qori müəllimlər seminariyası nəzdində açılmış ibtidai məktəbdə müəllim olmadığına görə Çernyayevski özü ona rəhbərlik edirdi, məktəbdə



şagirdlərə Azərbaycan və rus dillərində dərs keçirilirdi, onlar əsas şöbəyə hazırlanırdılar. Çernyayevski sonralar bu vəzifəni tutmağa Səfərəli bəy Vəlibəyovu hazırlamışdır.

1881-ci ildə seminariyanı bitirən S.Vəlibəyov burada ibtidai məktəb müəllimi vəzifəsində saxlanılır və 1896-cı ilə qədər seminariyada fəaliyyət göstərir.

1883-cü ilin yay tətili zamanı Şuşada istirahət edən S.Vəlibəyov burada bir nümunəvi məktəb açaraq uşaqlara savad öyrədirdi. Onun məktəbində müxtəlif təbəqələrdən 25 nəfər şagird təhsil alırdı. O, tədrisi səs üsulu ilə aparır və yerli məktəbdarlara da səs üsulunun üstünlüyünü nümayiş etdirirdi.

S.Vəlibəyov 1896-cı ildə Qoridən Bakıya köçmüş, burada bir il Bakı real məktəbində müəllimlik etmişdir. 1897-ci ildə isə Bakı Gömrükxanasında tərcüməçi vəzifəsində çalışmağa başlamışdır.

Səfərəli bəy Vəlibəyov XIX əsr Azərbaycan pedaqoji tarixinin simalarından biri hesab edilir. O, Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasını bitirən ilk üç Azərbaycanlıdan biri olmuş, ömrünün 16 ilini pedaqoji işə sərf etmişdir. Bu müddət ərzində C.Məmmədquluzadə, N.Nərimanov, S.S.Axundov kimi şəxsiyyətlər ibtidai təhsillərini Vəlibəyovdan almışdır.

Öz pedaqoji və maarifçi fəaliyyətinə görə Səfərəli bəy Vəlibəyov bir neçə orden və medalla təltif olunmuşdur: 1888-ci ildə III dərəcəli "Müqəddəs Stanislav ordeni", III dərəcəli "Müqəddəs Anna ordeni" , "İmperator III Aleksandr hökmdarlığının xatirəsinə" medalı, Buxara əmirliyinin I dərəcəli "Buxara ulduzu" ordeni, İranın IV dərəcəli "Şiri Xurşid ordeni" .

Səfərəli bəy İran şahzadəsi Bəhmən Mirzə Qacar Qovanlının qızı Xurşid xanım ilə ailə qurmuşdur. Nigar xanım və Süreyya xanım adlı qızları dünyaya gəlmişdir.

Ədib və müəllim Süleyman Sani Axundovun dayısıdır.

Səfərəli bəy Vəlibəyov ömrünün 42-ci ilində - 1902-ci il avqustun 31-də Bakıda ürək xəstəliyindən dünyasını dəyişmişdir.